# Ənkəbut surəsi, 68 (Qurandan kənar hökm uyduranların yeri cəhənnəmdir)

**Hörmətli Adnan Oktarın A9 telekanalındakı canlı söhbəti**
**(15 mart 2013; 11:00)**

Ənkəbut surəsi 68-ci ayə. Şeytandan Allaha sığınıram. **"Allah barəsində yalan uydurub iftira atanlardan və ya özünə haqq gəldikdə onu yalan sayan kəsdən daha zalım kimdir? Cəhənnəmdə inkar edənlər üçün yermi yoxdur?"** (Ənkəbut surəsi, 68)

**Adnan Oktar: "Allah barəsində yalan uydurub iftira atan",** nə deməkdir? "Peyğəmbər (s.ə.v) belə dedi" deyə hədis uydurur. Allah adından yalan danışır. Bu, haramdır. Allah Quranda bunu söyləyir. **"Özünə haqq gəldikdə onu yalan sayan kəsdən"**, Quranın hökmünü söyləyirik, onu da yalan sayır. "Elə şey yoxdur" deyir. "Allah söyləyir" deyirik. "Elə şey yoxdur" deyir. "Allah: "Quran kifayətdir" deyir" deyirəm. "Yox, elə şey yoxdur" deyir. Bunu da yalan sayır. Allah: **"Daha zalım kimdir?"** deyir. "Ən zalım olan odur" deyir. Yəni cəhənnəmin dibinə gedəcək tiplər onlardır, mənasında deyir. Yəni müşriklər, mövhumatçılar. **"Cəhənnəmdə inkar edənlər üçün yermi yoxdur?"** Allah bunu inkar etmək kimi qəbul edir. İnkar edir onsuz da, Allahın hökmünü dəyişdirir.

https://www.harunyahya.info/az/meqaleler/enkebut-suresi-68-qurandan-kenar-hokm-uyduranlarin-yeri-cehennemdir